

*Bahar Bərdəli*

# DONAN GÜLÜŞ

(hekayə)

**Bütün şəhər əhli əlində al-qırmızı qərənfil xiyabana tərəf axışırdı. Dünənə kimi Dağüstü park adlanan yer indi Şəhidlər xiyabanına çevrilmişdi. Bu yolda insan axını selə-suya dönmüşdü, ardı-arası kəsilmirdi. Bir ay vardı belə idi. Fevralın sərt, acı küləyi, qarı yağışı da bu axını səngidə, sakitləşdirə bilməmişdi. Təkcə insanlar deyil, vaxtın, zamanın özü, şəhərin bəxti, taleyi də qasırğaya düşmüş, fırtınaya tuş gəlmişdi.**

Nərgiz də çox istəyirdi bu axına qoşulub xiyabana getsin, şəhidlərin qəbrini ziyarət etsin. Ancaq nəsə ürək eləmirdi. Bir tərəfdən hələ tufan sakitləşməmişdi. Şimaldan əsən qasırğa küçələrə hər gün dolu yağdırırdı. Bu qarın-yağışın altında yalnız tanklar idi arxayın-arxayın şütüyən. Digər tərəfdən də, tək getmək istəmirdi. Onu - oğlanı göz-ləyirdi. Bir neçə dəfə bağlı kitabxananın qarşısına gəlib axtarmışdı. Axı onlar hər gün gəlib imtahana bu kitabxanada hazırlaşırdılar. Şəhərdə hər iş dayandığından kitabxana da bağlanmışdı. Matəm günləri idi. Şəhidlərdən başqa xalq heç kimi, heç nəyi düşünmürdü. Bununla belə oğlan da onu axtarmalı, tapmalı idi. Çünki bütün kitab-dəftərləri qızın sumkasında qalmışdı, axı.

ikisi də birinci kursda oxuyurdu. Və hər ikisi eyni çətinliyi, sıxıntını, eyni həyəcanı keçirirdi. Ancaq müxtəlif institutlarda təhsil alırdılar. Oğlan inşaatçı, qız həkim olacaqdı. Elə burda - mərkəzi kitabxanada tanış olmuşdular. Tez-tez gəlirdilər kitabxanaya. Xüsusilə qış imtahan sessiyasının başladığı vaxtdan hər gün burda idilər. Materialın çoxluğundan, ədəbiyyatın azlığından, tapılmazlığından yaman təntimişdilər. Ürəklərində, gözlərində bir qorxu da dolaşırdı. imtahandan kəsilmək qorxusu. Onları min arzu-diləklə, böyük ümidlə yola salmış ataanalarının yanına naümid qayıtmaq qorxusu. Və bir də təqaüddən kəsilmək qorxusu. Onsuz da maddi vəziyyətləri ağır olan ailələrinə ağır yük olmaq istəmirdilər. Elə buna görə də gecəni gündüzə qatmışdılar. Kitablardan əl çəkmir, oxuyur, oxuyurdular Qaldıqları darısqal, yarımqaranlıq, səs-küylü kirayə evində də hazırlaşmağa şərait yox idi. Qiraətxanadasa sakitlik, dinclik, təmizlik vardı.

***

Beynimə heç nə girmir. - Növbəti səhifəni çevirəndə oğlan yorğun-yorğun pıçıldadı.

- Niyə - Qız da eyni pıçıltı ilə soruşdu.
- Bilmirəm. Elə bil su dolu qabı ağzı üstə çevirmisən, su tökülür, sən də çalışırsan qabın içərisinə nəsə atasan.
- Qəribə bənzəyişdi. - Qız xısın-xısın güldü. - Axı sənin beynin su da olsa ağzı üstə çevrilməyib, niyə tökülürü
- Orası düzdür. Amma, bilirsən, beyin qabıqlarım hələ möhkəmlənməyib. Səs-küyün təzyiqindən çox sıxılır. iki tərəfdən yumşaq qabı sıxsan, içərisindən maye tökülməzmii
- Tökülər, əlbəttə, tökülər. Maye nədir, lap daş da olsa, toz da olsa tökülər. - Qız gülməyini güclə boğdu. - Sonra noluri
- Sonra da... elə bil şəhərin bütün maşınları, harasa tələsən, qaçan əsəbi insanları beynimin içindən özlərinə yol salıblar, qulaqlarımda tükənməz bir uğultu var.
- Aydındır. Qaynayan şəhərə alışa bilmirsən. Hətta bu saat, bu sakit kitabxananın sakit qiraətxanası da səninçün bazar meydanını xatırladır, elədiri
- Elədir, hər yerdən də aktyor Arif Quliyevin səsi gəlir: üç badam, bir qoz, üç badam bir qoz... Və ən dəhşətlisi də budur ki, həmin badam-qozları mənim bu bəlalı başımda sındırırlar: tak, tuk... tak, tuk... - Oğlan çarəsiz-çarəsiz gülümsədi.
- Yaxşı, əgər səni indi kəndə oxşayan meşəli, güllü-bənövşəli sakit bir yerə aparsam, mənə neylərsəni - Qız oğlanın çox oxumaqdanmı, yuxusuzluqdanmı qızarmış göz-lərinə baxdı.
- Sənə yaxşı-yaxşı hədiyyə ala biləm, əgər təqaüd ala bilsəm. - Oğlan sevinc qarışıq bir ümidlə dilləndi.
- Yox, hədiyyə lazım deyil. Sonrai
- Sonra... hər gün səni kinoya, gəzməyə apararam...
- imtahanlar qurtaran kimi mən kəndə qaçıram. Qayıdanda da yenə kitabxana, qiraətxana... Sonrai
- Sonrai - Oğlan fikrə getdi. - Səni kəndimizə apararam. Görərsən dağların qoynunda cilvələnən necə gözəl obamız var. Sən heç dağda olmusani
- Yox. Bu böyük hədiyyə oldu.
- Eh, mənim çəkdiyim zülmün qabağında bu nədir kii Allah düşmənimə də göstərməsin. Bir "xozeykam" var, bahbah, vaxt-bivaxt çıxıb mənim "quş damı" olan otağı-mın üstünə, elə banlayır ki, səsini kənddə nənəm də eşidir. Hə-hə! Cavab verməsən, keçən əsrin paravozu kimi guruldayar!
- Nə danışırsani! - Qız uğundu. - Yəqin mənim "xozeykamın" bacısıdır.
- Güvəc dığırlanıb qapağını tapıb ki! - Oğlan da səssiz uğundu.
- Gəl, elə indi gedək! - Qız birdən ayağa qalxıb dəftər-kitabını yığışdırdı, qoltuğuna vurub qabağa düşdü. Oğlan da arxasınca.

Telestudiyanın qarşı tərəfində trolleybusdan düşdülər. Yolu keçib bağa girdilər. Hündür, həmişəyaşıl ağacların budaqları yuxarıda qucaqlaşıb elə bir tunel yaratmışdılar ki, səma görünmürdü. Bu yaxınlıq, birlik ağacları Xəzərin dəli xəzrisindən, çovğun-borandan qoruyurdu. Tunelin havası ılıq, yumşaq idi. Budaqların arasında civildəşən quşların səsi gəlirdi. Qız özünü divardibi bir skamyanın üstünə atdı:

- Ah, nə sakitlikdir, adamın ruhu dincəlir burda!
- Doğrudan nə yaxşı sakit guşə tapmısani - Oğlan kitab-dəftərini bir oturacağın üstünə atıb, başqasında əyləşdi. Evdə darlıqdan, sıxlıqdan, şəhərdə hər addımda növbədən o qədər çəkmişdi ki, indi elə bilirdi bi saat oturacaqlar tutulacaq.
- Yerini yaxşı tapdın, ora sənin olsun, bura mənim. Gündə burda beş bilet öyrənə bilsək, beş günə iyirmi beş biletin hamısı hazır olar. Və imtahanda da hərəmizin bir "beş"i hazırın naziri olar!
- Allah qoysa denən, - oğlan uşaq kimi xırda-xırda güldü. - Fizika-riyaziyyatdan heç "dörd" də pis olmazdı.
- Bizdən hərəkət, ondan bərəkət, inşallah yaxşı olacaq.

iki saat sonra qız ayağa qalxdı:

- Bu günlük bəsdi. Daha beynim qəbul eləmir.

Bir-birindən iki-üç metr aralı tunelboyu gəzirdilər.

- Bilirsən bu park bir vaxtlar nə olubi - Qız dedi.
- Yox. - Oğlan sual dolu baxışlarını tuneldən çəkib qıza dikdi.
- O gün müəllimimiz danışırdı. Bura bir neçə metr hündürlüyündə qayalıq imiş. Qayalıqların döşündə də şəhərin böyük qəbristanlığı.
- Hm... Maraqlıdı, bəs o boyda qəbristanlıq necə olubi
- Necə olacaq, budur, ayağımızın altında. Üstünə asfalt çəkiblər.

Oğlan diksinib ehtiyatla yerə baxdı:

- Park salmağa başqa yer yox idimii
- Əlbəttə, vardı. Şəhərdə park çoxdu. Axı dedim ki, bura qəbristanlıq idi. Ölənlərin də çoxu 1918-1920-ci illərdə ermənilərlə davada pencər kimi biçilənlər...
- Hə... görünür, kini-küdurəti aradan qaldırmaq üçün, pis günləri yaddan çıxartmaq üçün tarixi siliblər.
- Elə olsaydı, dərd yarı idi. Amma ulular başqa söz deyib: "Min il keçsə də, qarı düşmən dost olmaz-olmaz!". Düşmənçiliyi unutmaq sadəlövhlükdü, sonu isə məğlubiyyət. Çünki o, yatanda da gözünün birini tülkü kimi açıq qoyub, fürsət gözləyir. Belə vaxtda yatanın vay halına. Gərək "Kəlmeyi-şəhadət"ini də əvvəlcədən oxusun...

Oğlan yerində büzüşmüşdü. Ətrafına baxa-baxa ayağının birini götürüb o birini qoyurdu. Üşüyürdümüi Ya ayağının altında kiminsə ruhunu incitməkdən qorxurdui Qıza baxdı:

- Sən Allah, gedək burdan!

Qız bir söz demədi. Sakitcə xiyabanı tərk etdilər.

***

Fevralın ortaları idi. Qanlı Şənbə qırğınından sonra imtahanlar yarımçıq qalmışdı. Qız yaman darıxırdı, daha gözləməyə səbri çatmadı. Bir dəstə qərənfil alıb xiyabana tərəf yollandı. "Bəlkə yolda rastlaşdıq. Ola bilməz ki, o da şəhidləri ziyarət etməsin". - Ürəyindən keçirdi.

Xiyabanda anaların ah-naləsi göyə bülənd olmuşdu. Başdaşlarının yerində böyük şəkilləri asılmış şəhidlərin məzarlarına baxdıqca gözlərindən yuvarlanan yaş damlaları həm yanaqlarını, həm də ürəyinin başını göynədirdi. Bir gecənin qurbanı olmuş bu insanların nəydi günahıi Azadlıq eşqimii Sərbəst-müstəqil yaşamaqmıi Ya Qarabağda "dostların" birləşib düşmən olmalarını sübut eləmələrinə qəti etirazlarıi Axı hissə-hissə parçalanıb dağılan Vətən əldən gedirdi. Düşmən tapdağında qalmaqdansa, bəlkə, belə yaxşıdırı

Budur, məktəbli uşağın şəkli önündə bir ana bayatı çəkirdi:

**Dərdimin ahı bala,**
**Ahın sabahı bala...**
**Kim qıydı gül üzünə,**
**Nəydi günahın, balai!!**

Sumkası, dəftər-kitabı sinəsi üstə səpələnmiş bu məzara qız çox baxa bilmədi.

Təzəcə toyları olmuş iki gəncin məzarı önündə ana haray çəkirdi:

**Bakının bu çağında,**
**Od yanar qucağında...**
**Baş qoyum sinən üstə,**
**Nazlanıb qucağında...**

Gənclər bir yerdə dəfn olunmuşdu. Hər ikisinin toy paltarında çəkdirdikləri qoşa şəkilləri məzarın başında elə bəxtəvərliklə gülümsəyirdi ki... Bu şəkli çəkdirəndə necə xoşbəxt imişlər! Ağıllarına gələrdimi, bir aydan sonra hər ikisi bir məzarda əbədi uyuyacaqlari!

**Əzizim, gözüm dağlar,**
**Sənədir sözüm, dağlar!**
**Maralım burda itib,**
**Haranı gəzim, dağlari!!**

Yox, buna da dözmək mümkün deyildi. Kirpiklərindən asılmış, bir-birini sürətlə əvəz edən damlalar baxmağa imkan vermirdi. Əl dəsmalını çıxardıb gözlərinə sıxdı. Başqa məzarın önündə gözlərini açanda dizləri qatlandı, ayaq üstə dayanmağa heyi qalmadı, yerə çökdü... Qolları yanına düşmüşdü. Elə bil özünün deyildi. Onu istədiyinə tərəf aça bilmirdi. Bir ay hər gün, hər saat həsrətlə, intizarla gözlədiyi adam qarşısında həmişəki təbəssümü ilə gülümsəyirdi. Yox, qız az yaşında çox dərd görsə də bu dərdi gözləmirdi. Gözləməzdi imtahana hazırlaşmağa bu boyda şəhərdə rahat yer tapmayan, özünün dediyi kimi "quş damın"dan qaçıb xiyabana - sakit yerə sevinə-sevinə gələn oğlan buranı özünə əbədi məskən seçəcək. Oğlan uşaq təbəssümü ilə ona baxırdı. Həzin-həzin, kövrək-kövrək, bir az da qorxa-qorxa. Elə bil soruşurdu: "imtahandan kəsilmərik kii".

Qız daha ağlamır, dil olub yalvarırdı:

- Sabah sənin imtahanın olmalıdır. Özü də fizikadan... Yoxsa unutmusani Dur gedək, nolari Yoxsa buralar xoşuna gəldii Bəs kəndinizi Yolunu gözləyən ata-ananı "Qardaşımız Bakıda oxuyur!" - deyən, sevinən bacı-qardaşın nə düşünəri Onların balaca ürəklərini qırıb parçalamazmıi Bəs imtahanda sənin yerinə kim cavab verəcəki Müəllimlər nə deyəcəki Qalx, qalx, gedək! Daha buraların da sakitliyi pozulub. Çətin ki, bir də o dinclik qayıtsın, ah-nalənin əlindən... Qalx ayağa! Vallah, mənim də beynim üzüquylu çevrilmiş su dolu qabdır. Heç nə götürmür... Qalx, görüm! Axı, mən dəli ola bilərəm!

Oğlan yenə uşaq səmimiyyəti ilə gülürdü. Nəyəi Həyatamıi Dünyayamıi Zamanamıi Böyüklərin bilmədiyi sualla onu "kəsdiklərinəmi"i Öz ölümü ilə ölümsüzlüyün zirvəsinə qalxdığınamıi O zirvədən bir daha enib "quş damı"na getməyəcəyinəmii Bilmirdi. Eləcə gülürdü... Və ən ağırı o idi ki, daha qızı eşitmirdi...

Ədalət 2019.- 25 yanvar.- S.6.